


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

20 noyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 45 (3757)


# Yeni birlik yaranır

**Zəngin və dinamik xarici siyasət bu gün Azərbaycanın ən əsas reallıqlarından biridir. Ölkəmizin mühüm geosiyasi aktora çevrilməsi Azərbaycanın qlobal proseslərdə aktiv iştirakını təmin edir.**



Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakı bu əməkdaşlığın yeni bir mərhələyə keçdiyini təsdiqlədi. Bu format artıq Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında mərkəzləşdirilmiş siyasət mexanizminin formalaşmasını göstərir.

Prezident İlham Əliyev görüşdəki çıxışında vurğulayıb ki, Azərbaycan və Mərkəzi Asiya dövlətlərini çoxəsrlik ortaq tarix, mədəni və mənəvi bağlar birləşdirir və bu əlaqələr bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

> *Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir*

## Azərbaycan bölgənin əsas aktorlarındandır

Məşvərət formatının əsas məqsədi regionda dayanıqlı dialoq platformasının yaradılması, ölkələr arasında siyasi inamın və əməkdaşlığın gücləndirilməsidir. Bu il Azərbaycanın formatda tamhüquqlu üzv kimi iştirakı isə regional modelin böyüdülməsini və "Mərkəzi Asiya + Azərbaycan" çərçivəsinin rəsmi olaraq təsbit edilməsini təmin etdi.

Görüşlər təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadi inkişaf kimi sahələrdə ortaq strategiyaların formalaşmasına şərait yaradır. Regional inteqrasiya və sabitlik baxımından Mərkəzi Asiyanın vahid əməkdaşlıq məkanına çevrilməsi də bu toplantıların əsas hədəflərindəndir. Tranzit və infrastruktur layihələri üzrə müzakirələr region ölkələrinin logistika və iqtisadi əlaqələrini daha da möhkəmləndirir. Format məsləhətçi xarakter daşıdığından, ittifaq qurumu deyil, açıq dialoq meydanıdır və liderlərə birgə vizyon yaratmaq imkanı verir.

Son görüşlərdə artıq "Mərkəzi Asiya Birliyi" modelinə keçid ideyası, rotasiyalı katiblik və yeni institutların yaradılması kimi təkliflər gündəmə gəlib. Azərbaycan Prezidentinin geniş çıxışı bu əməkdaşlıq xəritəsinin konturlarını müəyyənləşdirib və ölkəmizin türk dünyası daxilində strateji institutlaşmanın mərkəzi iştirakçısına çevrildiyini nümayiş etdirib. Azərbaycan bölgənin geosiyasi körpüsü kimi Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni strateji məkana yol açır.

Azərbaycan bundan sonra bütün Mərkəzi Asiya platformalarında, sammitlərdən tutmuş nazirlər səviyyəsində görüşlərədək daimi və tamhüquqlu iştirakçı olacaq. Bu, həm Türk Dövlətləri Təşkilatında, həm də Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə ölkəmizin rolunu daha da gücləndirir. Paralel olaraq Azərbaycan Cənubi Qafqazda sülh, kommunikasiyaların açılması və regional inteqrasiya proseslərində də aparıcı mövqeyini də qoruyub saxlayır.

Prezident İlham Əliyevin Daşkənddə keçirilən "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirakı da Azərbaycanlararası dialoq sahəsində qlobal nüfuzunun artdığını göstərdi. Bu mükafata Azərbaycanın görkəmli muğam ustası Alim Qasımovun layiq görülməsi ölkəmizin mədəniyyət diplomatiyasında yüksələn rolunu daha da möhkəmləndirdi.

Mütəxəssislərin qənaətincə, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv kimi iştirakı həm ölkəmiz, həm də region üçün tarixi hadisədir. Bu yeni inteqrasiya mərhələsi Avrasiyada formalaşan geosiyasi konfiqurasiyada Azərbaycanın əsas aktorlardan birinə çevrildiyini təsdiqləyir.

# Qarabağın quruculuq dövrü

## Bunun təməlində təhlükəsizlik mühiti dayanır

**Azərbaycan hazırda özünün qürurverici inkişaf mərhələsini yaşayır. Xüsusi ilə Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə həyata keçirilən layihələr dirçəliş dastanına çevrilib.**

Şübhəsiz ki, bu prosesin mərkəzində ilk olaraq təhlükəsizlik mühitinin təmin olunması dayanır. Ərazilərin minalardan təmizlənməsi, ictimai asayişin bərpası və təhlükəsizlik tədbirləri olmadan nə əhalinin qayıdışı, nə də davamlı inkişaf mümkün idi. Dövlət bu məqsədlə humanitar təhlükəsizliyi strateji prioritet kimi müəyyən edib ki, bu da həm insanların yaşayışını, həm də yeni iqtisadi ekosistemin formalaşmasını sürətləndirir.

Regionda yol-nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun qurulması Qarabağ və Şərqi Zəngəzuru ölkənin ümumi inkişaf xəritəsinə inteqrasiya edir. Yeni avtomobil və dəmir yolları, hava limanları, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri bölgənin gələcək iqtisadi modelinin əsasını qoyur. Ənənəvi kənd təsərrüfatı ilə yanaşı, aqrar sənaye, müasir suvarma sistemləri, logistika və xidmət sektorlarının inkişafı həm məşğulluğu artırır, həm də ərazilərin iqtisadi dəyərini yüksəldir.

Yenidənqurma və şəhərsalma layihələri müasir urbanizasiya yanaşmasını əks etdirir. Böyük Qayıdış proqramı çərçivəsində sosial xidmətlərin genişləndirilməsi, təhsil və səhiyyə infrastrukturunun bərpası, yeni məktəb və xəstəxanaların tikintisi insanların yüksək həyat keyfiyyətinə malik olduğu yaşayış mühitinin formalaşdırılmasına xidmət edir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi, məşğulluq imkanlarının artırılması bölgənin sosial-iqtisadi inkişafını sürətləndirir.

Son beş ildə görülən işlərin miqyası Prezident İlham Əliyevin şəxsi nəzarəti və ardıcıl fəaliyyəti ilə birbaşa bağlıdır. Dövlət başçısı 500-dən çox tədbirdə iştirak edib, yüzlərlə layihənin təməlini qoyub. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının açılması, minlərlə kilometrlik yol və sosial obyektlərin istifadəyə verilməsi bölgəni ölkənin logistik və iqtisadi xəritəsinə tam inteqrasiya edib.

İnfrastrukturla yanaşı, tunellər, körpülər, dəmir yolları, məktəblər, xəstəxanalar və mədəniyyət obyektləri məskunlaşmanın dayanıqlığını təmin edir. Bu proses sadəcə bərpa deyil, yeni inkişaf modelinin formalaşmasıdır. Artıq 60 mindən çox insan bölgədə yaşayır, işləyir və təhsil alır ki, bu da iqtisadi imkanların genişləndiyini göstərir.

Sənaye zonalarının yaradılması, vergi və gömrük imtiyazları, investisiya təşviqi mexanizmləri Qarabağ və Şərqi Zəngəzurda yeni iqtisadi həyatın qurulmasına şərait yaradır. Hər yeni müəssisə və istehsal sahəsi bölgənin dövriyyəyə tam qayıdışına töhfə verir. Bu siyasət regionun qısa müddətdə dayanıqlı, müasir və rəqabətqabiliyyətli iqtisadi məkana çevrilməsini hədəfləyir.

# Prezidentlərin fikir mübadiləsi

## Səfirliyimizə raket zərbəsi pislənib

Noyabrın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınayıb. Dövlətimizin başçısı İlham Əliyev də insidenti pisləyib və diplomatik nümayəndəliklərə hücumların qəbuledilməz olduğunu deyib. Zelenski humanitar yardıma görə Azərbaycana təşəkkür edib.

# Dövlətimizin başçısı müsahibə verib

## "Özbəkistan qardaş ölkə və etibarlı müttəfiqdir"

Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verərək iqtisadi, mədəni, humanitar və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığın inkişafı barədə danışıb. Dövlətimizin başçısı Özbəkistanın Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiq olduğunu bildirib.

# Nümayəndə heyəti ilə səmərəli görüş

## Yeni infrastruktur layihələri müzakirə olunub

Prezident İlham Əliyev Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə 1999-cu ildən bu günədək AİB-in Azərbaycana 5,5 milyard dollar dəyərində dəstək verdiyi, nəqliyyat, enerji, su təchizatı, təhsil və digər sahələrdə layihələrin uğurla icra edildiyi bildirilib. Həmçinin yeni layihələr, o cümlədən dəmir yolu, metro və su təchizatı sahəsində əməkdaşlıq müzakirə olunub.

# Milli Dirçəliş Günü qeyd olundu

## Prezident və Birinci vitse-prezident paylaşım ediblər

Azərbaycan Prezidenti İlham Əliyev 17 Noyabr - Milli Dirçəliş Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Eyni zamanda Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində bayram münasibətilə öz təbrikini paylaşıb.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"ni təsdiq edib. Dövlət başçısı bununla bağlı noyabrın 17-də Fərman imzalayıb.*

*"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı noyabrın 17-də Fərman imzalayıb.*


Sabitlik dirçəlişimizin təməlidir..............2
Vətəndaşa xidmət əsas meyardır.........2
Şəhadətə gedən yol..............................3
Qaranlıqda "parlayan" lif.......................4

# Respublika Xəbərləri

### Bakı qışa hazırlaşır

Bakının rayonlarında qışa hazırlığın vəziyyəti ilə bağlı müşavirələr keçirilir. Paytaxt rayonlarında kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatlarının, təhsil müəssisələrinin, özəl sektor nümayəndələrinin iştirakı ilə görülməsi zəruri olan işlərin müzakirəsi aparılır.

### Qəzaların sayı azalıb

Bu ilin yanvar-sentyabr aylarında ölkə ərazisində 905 yol qəzası baş verib. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz az yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə zərər çəkən şəxslərin sayı 11,9 faiz azalaraq 1264 nəfər olub.

### Onlayn sosial müraciətlər artıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə bu ilin yanvar-oktyabr aylarında 22 milyon müraciət edilib. Məlumata görə, Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 399 milyon olub.

### İqtisadi fəal əhalinin sayı açıqlanıb

Bu il noyabrın 1-i vəziyyətinə ilkin məlumata əsasən, iqtisadi fəal əhalinin sayı 5381,5 min nəfər olub, onlardan 5102,6 min nəfərini məşğul əhali təşkil edib.Muzdla çalışan işçilərin sayı 1781,4 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 863,2 min nəfər, qeyri-dövlət sektorunda isə 918,2 min nəfər olub.

### Yeni iş yerləri açılıb

2025-ci ilin doqquz ayı ərzində ölkədə 77,7 min yeni iş yerləri açılıb. Bu dövrdə yaradılmış iş yerlərinin 91,4 faizi qeyri-dövlət sektoruna aiddir. İş yerlərinin 75,9 faizi Bakı şəhərinin payına düşüb. Yeni açılmış iş yerlərinin 9,1 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 89,8 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılıb.

### Ailələr yurdlarına köçür

Zəngilan rayonunun Məmmədbəyli kəndinə və Ağdam rayonunun Xıdırlı kəndinə köç karvanları gedib. Məmmədbəyliyə 30 ailə - 143 nəfər, Xıdırlı kəndinə isə 50 ailə - 219 nəfər qayıdıb. Onlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

### Kimlər məhkəmə katibi işləyə bilər?

"Hüquqşünaslıq" ixtisası ilə yanaşı bir neçə ixtisas üzrə ali təhsil müəssisələrini bitirənlər də məhkəmə iclas katibi işləyə biləcəklər. Müvafiq vəzifə təlimatına "filologiya", "fəlsəfə", "tərcümə", "jurnalistika", "tarix", "politologiya", "psixologiya", "sosiologiya", "regionşünaslıq", "beynəlxalq münasibətlər", "kitabxanaçılıq və informasiya", "dövlət və ictimai münasibətlər", "dövlət və bələdiyyə idarəetməsi" və "sosial iş" ixtisasları da daxil edilib.

### Qarabağda hərəkət asan olacaq

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib ki, Qarabağda "5 dəqiqəlik şəhər modeli"nin tətbiqi nəzərdə tutulur: "Dünyada ən geniş tətbiq edilən prinsip "15 dəqiqəlik şəhər modeli" olsa da, insanların evdən çıxıb gedəcəkləri məntəqəyə cəmi beş dəqiqə ərzində çata bilmələri üçün lazımi işlərin görülməsini qarşıya məqsəd qoymuşuq".

### Sosialyönlü xərclər artacaq

Gələn il sosialyönlü xərclərə 17,1 milyard manat və ya dövlət büdcəsi xərclərinin 41,1 faizi həcmində vəsait ayrılacaq. Bu, 2025-ci illə müqayisədə 213 milyon manat çoxdur. Maliyyə Nazirliyindən bildirilib ki, sosial - müdafiə və sosial - təminat xərclərinə növbəti il üçün 4,9 milyard manat vəsait ayrılacaq. Bu, cari ilə nisbətən 121 manat, ötən ilə nisbətən isə 722 milyon manat çoxdur.

### Dünya ölkələrilə ticarətimiz genişdir

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 173 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. Verilən məlumata görə, 115 ölkəyə məhsul ixrac olunub, 168 ölkədən idxal edilib.

# Sabitlik dirçəlişimizin təməlidir

## Milli oyanış Zəfər salnaməsinə necə çevrildi?!

**Azərbaycan xalqının mənəvi yaddaşında dərin iz buraxan 17 Noyabr – Milli Dirçəliş Günü ölkəmizin azadlıq salnaməsində mühüm mərhələ kimi xüsusi yer tutur. XX əsrin sonlarında sovet imperiyasının siyasi və ideoloji dayaqlarının çökməsi prosesləri regionda gərginləşdirmişdi. Bu şəraitdə imperiyanın Azərbaycan xalqına qarşı ayrı-seçkilik siyasəti daha açıq formada görünür, ermənilər milli resurslarımızı talan edirdi. Erməni separatizmi Qarabağda aktivləşərək açıq hərbi təcavüzə dönmüşdü.**

Ermənilərin Qarabağda, xüsusilə Topxanada törətdikləri vandalizm aktları, Ağdamda günahsız azərbaycanlıların qətlə yetirilməsi Bakıda milli hissləri alovlandırdı. 1988-ci il noyabrın 17-də Bakıdakı "Azadlıq" meydanında başlanan və uzun müddət davam edən mitinqlər xalqın imperiya siyasətinə etirazının simvoluna çevrildi. Meydanda səslənən "Suverenlik!" və "Azadlıq!" tələbləri həm də milli düşüncənin yenidən oyanışının ifadəsi idi. Bu hərəkat Azərbaycan xalqının öz taleyinə sahib çıxmaq iradəsinin parlaq nümayişi oldu.

Tarixin ən ağır anlarında ulu öndər Heydər Əliyevin qətiyyəti və siyasi uzaqgörənliyi milli ruhun sönməsinə imkan vermədi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetində Heydər Əliyevin sədrliyi ilə keçirilən tarixi sessiyada üçrəngli Azərbaycan bayrağının rəsmi şəkildə bərpa olunması milli istiqlal yolunun dönməz xarakter aldığını göstərdi. Bu addım müstəqilliyə gedən yolun əsas dayaqlarından biri olacaqdı.

Xalqın meydanda səsləndirdiyi suverenlik arzusu yalnız 2023-cü il sentyabrın 19-da keçirilən lokal antiterror tədbirləri ilə tam reallı-



ğa çevrildi. Azərbaycan daxili işlər orqanlarının birbaşa iştirakı ilə dövlətin suverenliyi tam bərpa edildi, ölkəmiz tarixinin yeni mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, dəmir yumruğu və xalqın etimadı bu tarixi Zəfəri şərtləndirdi. Artıq regionda tamamilə yeni reallıq mövcuddur. Azərbaycan qanunları dövlətin hər qarış torpağında keçərlidir, təhlükəsizlik tam təmin edilib, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri aparılır. Yəni sabitlik və təhlükəsizlik fonunda əsl dirçəliş yaşanır Qarabağda.

Bu baxımdan dövlətin hər yerində qanunun aliliyinin təmin olunması strateji əhəmiyyət daşıyır. Azad edilmiş torpaqlarda polis xidmətinin bərpa edilməsi buna görə yalnız təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi deyil, eyni zamanda, dövlət hakimiyyətinin tam şəkildə tətbiq edilməsi mənasına gəlir. Daxili işlər orqanları buna başda işğaldan azad edilən ərazilər də daxil olmaqla bütün ölkədə sabitliyi, ictimai asayişi və təhlükəsizliyi etibarlı şəkildə qorumaqla töhfə verir.

Milli Dirçəliş Günündən başlanan və müstəqilliyin möhkəmləndirilməsi ilə davam edən tarixi yol bu gün xalqımızın illər öncə meydanlarda arzuladığı suverenliklə tamamlanıb. Bu suverenliyin də qorunmasında daxili işlər orqanlarının fədakar xidmətinin, qanunun aliliyinin təmin edilməsində gərgin əməyinin xüsusi yeri vardır.

# Vətəndaşa xidmət əsas meyardır

## Prezidentin tapşırıqları hər bir dövlət qulluqçusuna aiddir

**Ötən həftə Prezident İlham Əliyev rayon icra hakimiyyətlərinə yeni təyin olunan icra başçılarını qəbul edərkən qarşıya qoyduğu tapşırıqlar, bir növ, vətəndaşa xidmət fəlsəfəsinin növbəti ifadəsi oldu.**

Prezident icra başçılarının əsas missiyasını qətiyyətlə ifadə edərək bildirdi ki, ilk növbədə xalqa xidmət etmək, xalqla bir yerdə olmaq hər bir rəhbərin əsas iş prinsipi olmalıdır. Aydın məsələdir ki, dövlət baş-



çısının rəhbərdən tələb etdikləri hər bir dövlət qulluqçusuna da aiddir.

Bu çağırış vətəndaşlarla ən çox ünsiyyətdə olan, onların problemlərinin operativ həllində bilavasitə iştirak edən polis əməkdaşları üçün də bir mayakdır. Çünki hər bir əməkdaş təkcə qanunun keşikçisi kimi deyil, həm də dövlətin vətəndaşa qayğısını birbaşa göstərən nümayəndə kimi çıxış edir. Xidmət zamanı etik davranış, müraciətlərə həssas münasibət, vətəndaşın qayğısına qalmaq kimi prinsiplər artıq peşəkar fəaliyyətin ayrılmaz tərkib hissəsi olaraq görülür.

Nazirliyin Kollegiya iclaslarında daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov da fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edərkən, ilk növbədə vətəndaş məmnunluğunun təmin edilməsini vurğulayır. Yəni tələb yenə vətəndaşa xidmətdir. Nazir son Kollegiya iclasında bir daha polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanların rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini tələb edib.

Şübhəsiz ki, bu gün vətəndaşın polisdən məmnunluq səviyyəsi yüksəkdir. Keçirilən sorğular və aparılan monitorinqlər də bunu təsdiqləyir. Hətta beynəlxalq indekslərdə belə Azərbaycan polisi özünün peşəkarlıq və ictimai etimad səviyyəsinə görə müsbət qiymətləndirilir. Bunun əsas göstəricisi ölkədə mövcud sabitlik, adambaşına düşən cinayətlərin azlığı və ictimai təhlükəsizliyin təmin olunmasıdır. İnsanların günün istənilən vaxtı özlərini təhlükəsiz hiss etmələri, can və əmlak təhlükəsizliyinə real təhdid görməmələri bu uğurun ən bariz sübutudur.

Ancaq onu da etiraf etməliyik ki, bəzən vətəndaşların müraciətləri yerli səviyyədə həll olunmadığından məsələ nazirliyə şikayət formasında gəlib çatır. Ola bilsin bunun obyektiv, yerli strukturlardan asılı olmayan səbəbləri də var. Bu boşluğu da DİN rəhbəriyinin bölgələrdə mütəmadi keçirdiyi vətəndaş qəbulları aradan qaldırır. Qəbullarda vətəndaşların dinlənilməsi, məsələlərin əksəriyyətinin yerindəcə həlli onların dövlətə olan inamını daha da möhkəmləndirir.

Gələk subyektiv səbəblərə: biz vətəndaş məmnunluğunu artırmaq deyərkən təkcə müraciətlərin həlli deyil, həm də şikayətə səbəb ola biləcək halların qarşısının yerlərdə vaxtında alınmasını nəzərdə tuturuq. Bu polisin gündəlik fəaliyyətində daha böyük məsuliyyət, icra intizamı, etik davranış normalarına ciddi əməl edilməsi, hər bir əməkdaşın davranışında şəffaflıq və obyekivliyin qorunması deməkdir. Odur ki, vətəndaş məmnunluğuna mənfi təsir edə biləcək ən kiçik məsamə belə diqqətdən kənar qala bilməz.

Bunu həm Prezidentin tapşırıqları, həm də Daxili İşlər Nazirliyinin prioritetləri hər bir polis əməkdaşı üçün müəyyən edib. Bu böyük etimadı bundan sonra da doğrultmaq, bu istiqamətdə görülən işlərin davamlılığını artırmaq ölkəmizdə sabitliyin və təhlükəsizliyin məhək daşıdır.

*Rəşad Mehtiyev*

# Problemlər həllini tapır

## Vətəndaş müraciətləri cavabsız qalmır, fəaliyyətimiz təqdir olunur

Vətəndaş Məsumə Quliyeva müraciətlərə diqqətlə yanaşılmasına, operativliyə, həmçinin müraciətinin müsbət həll olunaraq özünün və ailəsinin narahatlığına son qoyulmasına görə DİN rəhbərliyinə, eləcə də Xətai Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Kazım Əzizov müraciətinə həssas yanaşıldığına, yüksək peşəkarlıqla keçirilmiş operativ tədbirlərlə edilən köməkliyə görə DİN rəhbərliyinə və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir. O, Azərbaycan polisi ilə fəxr etdiyini qeyd edərək onlara çətin və şərəfli işlərində uğurlar arzulayır.

Vətəndaş Nadir Mayılov DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, üzləşdiyi yol-nəqliyyat hadisəsi ilə əlaqədar aparılan obyektiv araşdırmalara görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Anar İmamquliyev DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar aparılan obyektiv araşdırmalara görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkür edir.

Astara rayon sakini Elvin Nəsirov xidməti vəzifələrinin və peşə fəaliyyətinin öhdəsindən layiqincə gəldiyinə, peşəkarlığa, humanistliyə görə Rayon Polis Şöbəsinin rəhbərliyinə, həmçinin şöbənin şəxsi heyətinə minnətdarlıq edir.

# Şəhadətə gedən yol...

## Vətən onların qoruduğu və üz qoyduğu torpaqdır

**Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, eləcə də 44 günlük Vətən müharibəsi ataların və oğulların sınağı oldu. Ataların başa çatdıra bilmədiyi tarixi missiyanı isə 44 günlük Vətən müharibəsində oğullar layiqincə yerinə yetirdilər. Ataların döyüş yolunu davam etdirib haqqa qovuşan oğullardan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunların hərbi qulluqçusu çavuş Quluzadə Elşən Qulu oğlu idi.**

Elşən 1998-ci il oktyabrın 20-də müharibə veteranı Qulu Quliyevin ailəsində dünyaya gəlib.

2015-ci ildə Elşən Bakıda yerləşən Azərbaycan Dənizçilik Kollecinə qəbul olunub, II kursda təhsil alarkən müddətli həqiqi hərbi xidmətə çağırılıb.

2016-cı ilin oktyabr ayında DİN-in Daxili Qoşunlarının sıralarına hərbi xidmətə yola salınıb. Hərbi and içdikdən sonra "N" saylı hərbi hissədə kiçik komandirlər kursunu keçib. Sonra digər hərbi hissənin komendant bölüyü və xüsusi təyinatlı dəstəsində kiçik komandir olaraq xidmətini davam etdirib. Tərxis olunduqdan sonra 2018-ci ilin aprel ayının 12-dən etibarən müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Bir çox hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib.

Vətən müharibəsi iştirakçısı baş çavuş Yasin Qasımov: "Elşən çox sərrast atıcı idi. Snayperlər arasında yarış olanda həmişə fərqlənirdi".

Gizir Şamil Əhmədov, Vətən müharibəsi iştirakçıları baş çavuşlar Aqil Əhmədov, Fariz Abbasov da onunla bağlı xoş xatirələrini dilə gətirdilər.



*Elşən Quluzadə*

2020-ci il sentyabrın 27-də Elşən erməni işğalçılarına qarşı döyüşlərə qatılıb. Döyüşçü yoldaşlarının bildirdiklərinə görə, Elşən Kəlbəcər rayonu istiqamətində, Murovdağ silsiləsinə aid bəzi yüksəkliklərin, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin azad olunması uğrunda qətiyyətlə vuruşub.

Oktyabrın 11-də Hadrut qəsəbəsinin yaxınlığındakı yüksəklikdə döyüşçü yoldaşları ilə pusquya düşüblər. Orada onlarla xüsusi təyinatlı şəhid olub və yaralanıb. Elşən də düşmən snayperinin atəşi nəticəsində başından ağır yara alıb. Silahdaşları onun şəhid olduğunu zənn ediblər, sağ qaldığını gördükdə isə ərazidən təxliyyə olunub. Hərbi qulluqçularımız pusqudan çıxmağı bacarıblar.

Hərbi qulluqçumuzun müalicəsi davam edib və o, oktyabrın 28-də komadan ayılıb. Mərkəzi Gömrük Qospitalında cərrahi əməliyyat olunub. Oradan Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasına göndərilib,üzərində növbəti cərrahi əməliyyat aparılıb. Dekabrın 28-də danışmağa başlayıb, "hər şey yaxşı olacaq", - deyib. 2021-ci il yanvarın 21-də həkimlərin ciddi səylərinə baxmayaraq həyatla vidalaşıb.

Şəhid hərbi qulluqçumuz Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

**Azərbaycan Respublikası Prezidentinin 18, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E.Quluzadə sağlığında "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli digər sərəncamları əsasən isə ölümündən sonra "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.**

*Yalçın Abbasov*

# Mübarizə qətiyyətlidir

## Kiberpolis daha bir əməliyyat keçirdi

**Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən sosial şəbəkələrdə müxtəlif yalan vədlər və şirnikləndirici təkliflər verməklə vətəndaşları aldadaraq pul vəsaitlərini ələ keçirən şəxslərə qarşı əməliyyat-texniki tədbirlər həyata keçirilib.**

Tədbirlər zamanı sosial şəbəkələrdə saxta elanlar yerləşdirən və özünü internet saytlarının təhlükəsizliyi məsələləri üzrə mütəxəssisi kimi təqdim edərək dələduzluqlar edən əvvəllər də eyni əmələ görə məhkum olunmuş şəxslər - Şahin Rəcəbov, Aqşin Bədəlov, İlkin Niyazov və Cəfər Cəfərov saxlanılıblar.

Araşdırmalar zamanı məlum olub ki, A.Bədəlov və İ.Niyazov sosial şəbəkələrdə, eləcə də müxtəlif saytlarda başqalarına məxsus bahalı mobil nömrə, avtomobil və evləri öz əmlakları kimi təqdim edərək dəyərindən qat-qat ucuz qiymətə satılması ilə bağlı elanlar yerləşdiriblər. C.Cəfərov isə müxtəlif müəssisə və iaşə obyektləri ilə "whatsapp" mesajlaşma sistemi vasitəsilə əlaqə saxlayaraq özünü brend əşyaların ucuz qiymətə alış-verişində vasitəçi kimi təqdim edib. Nəticədə saxlanılan şəxslər onlara beh göndərən zərərçəkənlərə qarşı dələduzluq edərək pul vəsaitlərini ələ keçiriblər.

Tədbirlər zamanı saxlanılan Ş.Rəcəbov isə xarici ölkələrə gedərək oradan Azərbaycanda fəaliyyət göstərən tanınmış şirkətlərlə əlaqə saxlayıb özünü elektron poçt və rəsmi saytların idarəedilməsi şirkətinin rəhbəri kimi təqdim edib. Daha sonra o, müəssisələrə məxsus domenlərin yerləşdiyi server və elektron xidmətlərin onun nəzarəti altına keçdiyini və ödəniş edilməyəcəyi təqdirdə onlayn xidmət sahələrinin fəaliyyətini tam dayandıracağını bildirib. Saxlanılan şəxs bu yolla qanunsuz olaraq əldə etdiyi vəsaitləri müxtəlif insanların adına olan hesablara köçürərək nağdlaşdırıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. Ş.Rəcəbov və A.Bədəlov barəsində məhkəmənin qərarı ilə həbs, digərləri haqqında isə alternativ qətimkan tədbirləri seçilib.

# Nəzəri və təcrübi təməl formalaşır

## Keçirilən mühazirələr keyfiyyətli təhsili stimullaşdırır

Polis Akademiyasında nəzəriyyə ilə təcrübənin vəhdətinin möhkəmləndirilməsini təmin etmək məqsədilə Akademiyaya təcrübəli mütəxəssislər dəvət olunur və onların iştirakı ilə mühazirə dərsləri keçirilir.

Akademiyaya dəvət edilən qonaqlar "Məhkəmə baxışı və yekun məhkəmə qərarının çıxarılması", "İnzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri", "Məhkəmə-xətşünaslıq və məhkəmə müəllifşünaslıq ekspertizaları", "Mülki-hüquqi müddətlər. İddia müddəti", "Sənədlərin məhkəmə texniki, məhkəmə fototexniki və məhkəmə portret ekspertizaları" və s. mövzularda mühazirə oxuyublar.





Mühazirələr zamanı mütəxəssislər tərəfindən məhkəmə baxışının mərhələləri, sübutların tədqiqi, prosessual sənədlərin tərtibi, mülki və inzibati hüquq münasibətlərində müddətlərin rolu, sənədlərin məhkəmə texniki, fototexniki və portret ekspertizalarının predmeti, obyektləri, növləri, vəzifələri və həll etdiyi məsələlər, sənədlərin saxtalaşdırma üsulları kimi mövzular ətrafında geniş izahlar verilib, nümunələr təqdim olunub.

# Reydlər davam edir

## Ətraf mühitin qorunması diqqət mərkəzindədir

Paytaxtın Pirallahı rayonunda "Təmiz hava" aylığı çərçivəsində tədbir keçirilib. Tədbirdə Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin, Pirallahı rayon DYP Şöbəsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər. Tədbir zamanı 20-yə yaxın nəqliyyat vasitəsi saxlanılaraq yoxlanılıb. Nəqliyyat vasitələrindən ixrac olunan zəhərli qazların miqdarı ölçülüb, qaydaları kobud şəkildə pozan şəxslər barəsində inzibati qayda da tədbirlər görülüb. Sürücülərin bəzilərinin avtomobilləri texniki normalara cavab verdiyi üçün yol polisi onlara təşəkkür edib.

Bakı şəhər DYP İdarəsinin əməkdaşları tərəfindən sürücülərə qanunvericiliyin tələbləri izah olunub. Sürücülərin və avtomobil sahiblərinin diqqətinə çatdırılıb ki, ətraf mühitin qorunması üçün nəqliyyat vasitəsindən ixrac olunan zərərli qazların miqdarının normalar çərçivəsində olmasına nəzarət etsinlər.

# Dəyirmi masa keçirilib

## Uşaq hüquqlarının qorunması prioritetlərdəndir



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Uşaq Hüquqları Aylığı" çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntuları: nəzəri və təcrübi problemlər" mövzusunda dəyirmi masa təşkil olunub.

Tədbirdə DİN-in Polis Akademiyasının professor-müəllim heyəti, nazirliyin müvafiq struktur qurumlarının, Xəzər Rayon İcra Hakimiyyətinin nümayəndələri, Xəzər rayonu üzrə orta məktəblərin şagird və müəllim kollektivi iştirak ediblər.

Ombudsman Aparatının Uşaq hüquqlarının müdafiəsi sektorunun böyük məsləhətçisi Azər İsalı tədbirdə çıxış edərək "Uşaq Hüquqları Aylığı" çərçivəsində təşkil olunan dəyirmi masanın və bu istiqamətdə qarşılıqlı əməkdaşlığın əhəmiyyətini vurğulayıb, Ombudsmanın uşaqların, o cümlədən hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib.Mövzular üzrə çıxışlar yekunlaşdıqdan sonra Akademiyanın kursantlarının hazırladığı məruzələr dinlənilib və mövzu ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

Tədbirin yekununda müzakirələrdə fəallıq göstərən məktəblilərə hədiyyələr təqdim edilib.

# Elektron xidmətlərdə yeni mərhələ

## DİN-in vətəndaşlara göstərdiyi xidmətlər əlçatanlıq nümunəsidir

Vətəndaş məmnunluğunun təmin edilməsi, göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və vaxt itkisinə yol verilməməsi məqsədilə Daxili İşlər Nazirliyi təqdim etdiyi elektron xidmətləri daim təkmilləşdirir.

Gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş Məhkumluq haqqında arayışın elektron əldə olunması prosesi də tam avtomatlaşdırılıb. Artıq "e-polis" mobil tətbiqində və "e-xidmet.mia.gov.az" portalında "Məhkumluq haqqında arayış"ı elektron qaydada, cəmi bir neçə saniyə ərzində əldə etmək mümkündür.

Əvvəllər bu arayışı almaq üçün sənədlərin təqdim edilməsi, yoxlanılması və arayışın hazırlanması müəyyən vaxt tələb etdiyindən vətəndaşlar bir müddət növbədə gözləməli və dövlət orqanına getməli olurdular. Beləliklə indiyədək təqribən 1 günə alınan arayışın real vaxt rejimində və heç bir quruma yaxınlaşmadan alınması mümkündür.




Yeni imkan sayəsində fiziki növbələr aradan qalxır, vaxt itkisi minimuma enir, xidmətin operativliyi və şəffaflığı artır. Eyni zamanda dövlət orqanları arasında məlumat mübadiləsi daha da sürətlənir, sənədlərin fiziki daşınmasına və arxivləşdirməyə ehtiyac qalmır.

# Qaydaları pozmayaq!

## Təhlükəli ötmələr faciəyə səbəb olur

Ötmə qaydalarının pozulması respublika yollarında baş verən ağır və faciəvi nəticəli yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən biri olaraq qalır. Belə qəzaların baş verməsini qaçılmaz edən çox zaman yüksək sürət, riskli manevrlər və sürücülərin yolun real vəziyyətini düzgün qiymətləndirməmələridir. Xüsusilə əks istiqamətli hərəkət zolağına çıxaraq aparılan təhlükəli ötmə qarşı-qarşıya toqquşmalara səbəb olur ki, belə hallarda nəqliyyat vasitələrinin sürətləri bir-birinə doğru yönəldiyi üçün zərbə qüvvəsi dəfələrlə artır və nəticələr çox faciəvi olur.



Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə bir daha xatırladır ki, ötmə yalnız yol nişanlarının icazə verdiyi yerlərdə aparılmalı, əks istiqamətli hərəkət zolağına çıxmazdan əvvəl qarşıdan gələn nəqliyyat vasitələrinin sürəti və məsafəsi düzgün qiymətləndirilməli, təhlükəsizlikdən tam əmin olduqdan sonra bu proses icra edilməlidir. Unutmayaq ki, yollarda təhlükəsizliyin əsas şərti diqqət, məsuliyyət və ehtiyatlı davranışdır. Qaydalara əməl etmək özümüzü və başqalarını qorumağın ən sadə yoludur.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən , Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qaranti var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. 2020-ci ilin oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

Oktyabrın 22-də Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Ağbənd qəsəbəsi, Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Oktyabrın 23-də Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli və Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı, Alaqurşaq kəndlərini işğaldan tam azad edildiyini bildirmişdir.

Oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası məhv edilib və ya sıradan çıxarılıb. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının bəzi kəndlərinin, həmçinin Qubadlı şəhərinin işğaldan tam azad edildiyini paylaşmışdır.





Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Azərbaycan Ordusu tərəfindən dünən Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd; Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər; Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhərinin azad olunduğunu bəyan etmişdir.

Oktyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan Ordusunun 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Azərbaycan Müdafiə Nazirliyinin ölkənin xüsusi xidmət orqanları ilə birlikdə həyata keçirdiyi parlaq əməliyyat nəticəsində Qarabağdakı qondarma rejimin "müdafiə ordusunun komandanı", general Cəlal Arutyunyan məhv edilib. Belə ki, C.Arutyunyanın getdiyi "UAZ" markalı avtomobili raket zərbəsindən sonra tamamilə yanaraq hərbi cani ilə birlikdə məhv olub. Zərbə nəticəsində daha iki erməni zabiti də məhv edilmişdir.

Oktyabrın 28-də gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qilican kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

Oktyabrın 29-da gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Həmçinin görülən cavab tədbirləri nəticəsində düşmənin 1-ci ümumqoşun ordusu komandanının müavini polkovnik Artur Sarqisyan və 18-ci motoatıcı diviziyanın rabitə rəisi mayor Aram Qazaryan məhv edilmişdir. Bundan əlavə 1-ci ümumqoşun ordunun artilleriya idarəsinin zabiti polkovnik-leytenant B.Aseryan, 2-ci motoatıcı alayın komandiri Hunan Hayrumyan yaralanmış və 5-ci dağatıcı alayın 3-cü taborunun komandir müavini Roman Tunyan isə itkin düşmüşdür. Saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan Ordusunun iki "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir.

Oktyabrın 30-da gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 ədəd PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının müdafiə zolağında avtomobil kolonunun atəşə tutulması nəticəsində polkovnik Viktor Arustamyan məhv edilmişdir. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

*(Ardı gələn sayımızda)*

# Qaranlıqda "parlayan" lif

## Polis qatilini necə tapdı?

1981-ci ilin yazında ABŞ-ın Atlanta şəhərində bir neçə qaradərili gəncin yoxa çıxmasından sonra polis ilk növbədə insan oğurluğu ilə yanaşı, qətl ehtimalını da araşdırdı. Araşdırmalar nəticəsində üzərində açıq zorakılıq əlamətləri olmayan meyitlər aşkarlandı. Ancaq həmin qurbanların cəsədlərinin ya çayda, ya da meşəlik sahədə aşkarlanması sirr olaraq qalırdı. Ard-arda törədilən cinayətlər rezonans doğurmuşdu. Nəhayət, növbəti cinayəti araşdırarkən polis izə düşə bildi. Hadisə yerindən tapılan lif bu müəmmaya aydınlıq gətirəcəkdi.

### Mikroskopik sübut

Kriminalistlər meyitlərin üzərindəki, maşınlardakı, o cümlədən hadisə yerinin müayinəsi zamanı tapılan müxtəlif rəngli lifləri incələyərkən müəyyənləşdirdilər ki, bu liflər adi parça liflərindən fərqlidir. Onlar xüsusi olaraq istehsal edilmişdi. Bu sübut polis üçün açar rolunu oynadı.



Fiber Evidence
and the
Wayne Williams Trial
(Part I)

By
HAROLD A. DEADMAN
Special Agent
Microscopic Analysis Unit
Laboratory Division
Federal Bureau of Investigation
Washington, D.C.

On February 26, 1982, a Fulton County, Ga., Superior Court jury returned a verdict of "guilty as charged" on two counts of murder brought against Wayne Bertram Williams by a Fulton County grand jury in July 1981. Williams had been on trial since December 28, 1981, for the asphyxial murders of Nathaniel Cater and Jimmy Payne in April and May of 1981. During the 8-week trial, evidence linking Williams to those murders and to the murders of 10 other boys or young men was introduced.

An essential part of this case, presented by the Fulton County District Attorney's Office, involved the association of fibrous debris removed from the bodies of 12 murder victims with objects from the everyday environment of Williams.

Fiber evidence has often been an important part of criminal cases, but the Williams trial differed from other cases in several respects. Fiber evidence has not played a significant role in any case involving a large number of murder victims. The victims whose deaths were charged to Williams were 2 of 30 black children and black young men who were reported missing or who had died under suspicious circumstances in the Atlanta area over a 22-month period beginning in July 1979. During the trial, fiber evidence was used to associate Williams with 12 of those victims.

Fiber evidence is often used to corroborate other evidence in a case—it is used to support other testimony and validate other evidence presented at a trial. This was not the situation in the Williams trial. Other evidence and other aspects of the trial were important but were used to support and complement the fiber evidence, not the usual order of things. The "hair and fiber matches" between Williams' environment and 11 of the 12 murder victims discussed at the trial were so significant that in the author's opinion, these victims were positively linked to both the residence and automobiles that were a major part of the world of Wayne Williams.

Another difference between this case and most other cases was the extremely large amount of publicity surrounding both the investigation of the missing and murdered children and the arrest and subsequent trial of Williams. Few other murder trials have received the attention that the Williams case received.

March 1984 / 13

### "Üçüncü ipucu" – avtomobil və ev arxivləri

İstintaqçılar daha tutarlı dəlil əldə etmək, cinayətkarı açığa çıxarmaq üçün polisin arxivlərini və şəhərin nəqliyyat qeydiyyatını incələdilər. Liflərdən əldə edilmiş məlumatlar göstərirdi ki, şübhəli şəxsin avtomobilində həmin lifə uyğun xalçalar mövcud idi. Polis həmin markalı xalçanı yalnız Atlanta şəhərinin müəyyən bölgəsində satışda olan mağazalardan birində aşkar etdi. Satış qeydlərində şübhəli şəxsin ev ünvanı və avtomobil nömrəsi qeyd olunmuşdu. Bu, polis üçün konkret istiqamət oldu.

Polis psixoloqlar və kriminalistlərlə birgə şübhəlinin xarakteri və daxili görkəminin portretini yaratdı.

### Şübhəlinin saxlanılması üçün "tələ" əməliyyatı

Belə nəticəyə gəlindi ki, cinayətkar gənc qurbanlarla münasibətdə olmuş, uzun müddət şübhəli davranışlarını gizlətmişdi. 1982-ci il yayında polis şübhəli şəxs olan Vayne Villiamsla bağlı axtarış həyata keçirdi. Onun evində və avtomobilində aparılan araşdırmalar nəticəsində hadisə yerlərindəki o nadir sarı-yaşıl liflərdən tapıldı. Laborator analizlərinə görə, həmin liflər qurbanların cəsədlərində və qatilin nəqliyyat vasitəsindəki ilə eyni idi. Beləliklə, polis bu sübutlarla cinayətkarı məhkəmə qarşısına çıxardı.

*Aytən Tahirova*
*polis kapitanı*

# Məhkəmə nitqi necə olmalıdır?

## Mütəxəssislər bu nitq növünə maraqlı yanaşma sərgiləyiblər

*(Əvvəli ötən sayımızda)*

Natiq nitq söylədikdə dinləyicilərə baxır, məhkəmə ilə daimi müşahidə əlaqəsi saxlayaraq ona müraciət edir. Fasilə zamanı heç vaxt dəyişməyən bədənin vəziyyəti sadəcə nitq zamanı dəyişir. Natiqin vəziyyəti onun fərdi görünüşü ilə təyin edilir.

Nitqin sonu onu başlanğıcla əlaqələndirməli, bütün nitqə kompozisiya tamamlama əhəmiyyətini verməlidir. O, elə olmalıdır ki, dinləyicilər ona qulaq asaraq hiss etsinlər ki, daha hər şey aydındır. Beləliklə, dinləyicilər nitqin məzmununa və natiqin səsinə görə bunu hiss etməlidirlər. Məhkəmədə nitqi təmtəraqlı cümlələr, sözlər ilə qurtarmaq artıq və hətta yersizdir. Ən yaxşısı məhkəmə nitqini məhkəməyə müraciətin dürüst ifadə edilməsi ilə sona çatdırmaqdır. Belə ki, bu müraciət dəqiq, aydın və qısa deyilməlidir.

Əgər natiq bu vəziyyətdə deyilsə, nitqi məhkəməyə xahişlə bitirmək lazımdır. Həm prokuror, həm də vəkil məhkəməyə tələb deyil, yalnız xahişlə müraciət edirlər. V.Leononko belə hesab edir ki, müəyyən şərtlər daxilində, xüsusilə də ictimaiyyətdə böyük təsir buraxan ağır cinayətdən söhbət gedirsə dövlət ittihamçısı məhkəməyə müraciət edərək, öz nitqində "tələb edirəm" sözünü işlədə bilər.

Belə ki, bu məhkəməyə qəti göstəriş, əmr xarakteri daşımamalıdır və "nəzakətlə, etika qaydalarına nəzarət edərək, cəmiyyətin fikrini əks etdirərək" ifadə edilməlidir.

Prokuror təqsirləndirilən şəxslə bağlı cinayət məcəlləsinin müvafiq maddəsinin və cəzanın qəbul edilməsinə dair öz fikirlərini (tələblərini deyil) məhkəməyə bildirir. Tələb etmək öz tələbinin yerinə yetirilməsini təkid edərək qəti formada istəmək mənası kəsb edir. Bu şəkildə prokurorun tələbi yalnız onun tələb etdiyinin tam yerinə yetirilməsi ola bilər. Bu halda məhkəmə iclasının digər iştirakçılarının çıxışı lazım gəlmir. Buradan belə aydın olur ki, məhkəmə istintaqının digər iştirakçıları kimi, prokuror da məhkəmədə hakimə tələblə deyil, xahişlə müraciət etməlidir.

Yalnız dinləyicilər üçün deyil, eləcə də xalq iclasçıları üçün də aydın olmayan hüquqi terminlərdən sui-istifadə etmək lazım deyil. Az istifadə olunan terminlər nitqdə aydınlaşır, lakin xarici dildə olan sözlər isə o an ana dilinə tərcümə olunur. Məhkəmə nitqində zalda iştirak edənlərin əksəriyyəti üçün aydın olmayan ixtisar olunmuş sözlərdən istifadə edilməsə daha yaxşı olar.

Öz formasına görə məhkəmə nitqi düzgün, aydın, bədii, ifadəli olmalıdır və bunun üçün natiq sözün çoxmənalılığını anlamalı və hiss etməlidir, eyni zamanda da dilin bütün imkanlarından istifadə etməyi bacarmalıdır.

Nitqin aydınlıq meyarı onun dinləyicilər tərəfindən anlaşılması, onun sadəliyi, asanlığıdır. Sadə ifadə məhkəmə nitqinin vacib xüsusiyyətidir. Dinləyicilər natiqin hər bir sözünü natiq başa düşdüyü kimi anlamalıdır və cəhd göstərmədən dinləyici onu başa düşməlidir. Qədim Romalı natiq Kvintilian deyirdi: "Elə danışmayın ki, anlasın, elə danışın ki, hakim sizi başa düşsün".

Bunu da qeyd edək ki, şifahi nitqdə cümlənin mənasını dəyişə biləcək durğunun əhəmiyyəti böyükdür. Durğu adətən nitqin əvvəlində olur, çünki bir məsələdən digərinə keçməni ayırır. Sonra edilən durğu son sözdə nə deyiləcəyi barədə dinləyiciləri diqqətdə saxlayır. Vacib yerləri, əsas sübutları, ən ciddi etirazları durğularla ifadə etmək lazımdır. Bunlar hüquqşünasın nitqinə səlislik verir, onun mənalılığını və təsirliliyini artırır. Ancaq məntiqi və psixoloji durğular bir-birindən fərqlənir. S.Volkonskinin təbirincə "məntiqi vurğu səssiz nitqdir". O məhkəmə nitqinə mükəmməllik, tamamlıq bəxş edir, məhkəmə nitqinin bir hissəsindən digərinə, bir cümlədən digər cümləyə keçməyə imkan verir. Psixoloji durğu cümlərası məna ilə müəyyən olunur və bədii nitqin təsirli vasitəsi kimi işlədilir.

Hər məhkəmə nitqinə mədəniyyət, sonra isə ifadəlilik tələbi irəli sürülür. İfadəlilik nitqi məhkəmə natiqində yaxşı inkişaf etmiş bədii təfəkkür ilə olur, lakin məhkəmə qarşısında hər çıxış edən peşəkar hüquqşunas çalışmalıdır ki, onun nitqi ifadəli olsun, çünki bu, onun emosionallığı və məhkəmə auditoriyasına təsiri artırmaq üçün və birinci növbədə məhkəmə natiqinin mövqeyinin düzgün olmasına hakimləri inandırmaq üçün lazımdır.

*(Ardı gələn sayımızda)*

*Aynur Səfərli*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik